**Odlar Yurdu Universitetin (VÖEN: 1500226281) Daxili Audit qaydalarına əməl olunması üzrə Audit Aktı ( Hesabatı)**

(01.01.2019 – 31.12.2019 tarixlərini əhatə edən dövr üzrə)

**Bakı şəhəri** **17 yanvar 2020-ci il**

## Ümumi müddəalar

Odlar Yurdu Universitetin Daxili Audit qaydalarına əməl olunması ilə bağlı 01.01.2019-ci ildən 31.12.2019 –ci il sonunadək olan fəaliyyəti dövründə maliyyə mühasibat şöbəsi, təsərrüfat şöbəsi, kadrlar və insan resursları şöbəsi və universitetin digər struktur bölmələri üzrə fəaliyyətlər əhatəli şəkildə araşdırılmış, aparılmış yoxlamaların nəticələri sistemli təhlil edilərək audit prosesi yekunlaşdırılmışdır.

Yoxlama ilə əhatə ediən dövrdə Universitetin əsas fəaliyyət ünvanı :
Hüquqi ünvan: AZ1072, Bakı şəhəri Nərimanov rayonu, Koroğlu Rəhimov, ev 13
Faktiki ünvan: AZ1072, Bakı şəhəri Nərimanov rayonu, Koroğlu Rəhimov, ev 13

Yoxlama ilə əhatə ediən dövrdə Universitetin əsas fəaliyyət növü aşağıdakılar olmuşdur:

8542001 - Universitetlərin fəaliyyəti

6820002 - Digər daşınmaz əmlakın (ev kirayəsi istisna olmaqla) icarəyə verilməsi üzrə fəaliyyət

8230004 - Salon, ticarət yarmarkaları, konqress, konfrans və yığıncaqların hadisə keçirilən yer və ya binanın idarə edilməsi üçün işçi heyətinin təqdim edilməsi ilə (və ya onsuz) təşkili, irəlləyişi və ya idarə edilməsi

Audit yoxlanması baş mühasib Kosayev Namiq İrşad oğlunun iştirakı ilə və təqdim edilmiş sənədlər üzrə aparılmışdır. Daxili audit yoxlaması 02.01.2020-cı il tarixdə başlanmışdır 17.01.2020-cı il tarixdə yekunlaşdırılıb.

Yoxlama ilə əhatə olunan dövrdə əsas struktur bölmə rəhbərləri aşağıdakılar olmuşdur:
Rektor prof.Vəliyev Əhməd Abdulkərim oğlu

1. Mühasibat Şöbəsi- Baş mühasib Kosayev Namiq İrşad oğlu
2. Təsərrüfat şöbəsinin müdiri - Rzayev Ramiz İbrahim oğlu
3. Hüquq və kadrlar şöbəsinin müdiri- Qasımova Hicran Alhüseyn qızı

Bu daxili audit hesabatı universitetin daxili audit qaydalarına əməl olunması vəziyyətinin qiymətləndirilməsi məqsədilə hazırlanmışdır. Audit prosesi 01 yanvar 2019-ci il tarixindən 31 dekabr 2019-ci il tarixədək olan dövrü əhatə etmişdir.

Auditin aparılmasında əsas məqsəd universitetdə maliyyə-intizamının möhkəmləndirilməsi, mövcud risklərin müəyyən edilməsi, daxili nəzarət mexanizmlərinin

effektivliyinin qiymətləndirilməsi və idarəetmə proseslərinin təkmilləşdirilməsi üçün tövsiyələrin hazırlanması olmuşdur.

**Auditin əhatə dairəsi**

Audit zamanı aşağıdakı struktur bölmələrin fəaliyyəti ətraflı şəkildə araşdırılmışdır:

- Maliyyə-mühasibat şöbəsi
- Təsərrüfat şöbəsi
- Kadrlar və insan resursları şöbəsi
- Universitetin digər müvafiq struktur bölmələri

**Audit metodologiyası**

Audit aşağıdakı üsullar vasitəsilə həyata keçirilmişdir:

- Maliyyə sənədlərinin və uçot registrlərinin yoxlanılması
- Müqavilələrin və öhdəliklərin təhlili
- Əməliyyatların seçmə üsulla araşdırılması
- Daxili prosedur və qaydalara uyğunluğun qiymətləndirilməsi
- Məsul şəxslərlə müsahibələrin aparılması

**Daxili audit proqramı**

Müəyyən edilmiş risklərə, fəaliyyətinin miqyasına və xüsusiyyətinə uyğun olaraq daxili nəzarət proqramı çərçivəsində aşağıdakı tədbirlər görülmüşdür:

Universitetin ayrı-ayrı əməkdaşları tərəfindən icra olunan əməliyyatların Qanunun və Qanunla tələb olunan aktların tələblərinə uyğun olaraq həyata keçirilməsini və müvafiq halda monitorinq olunması üzrə işlər təmin edilmişdir;

İşçilər tərəfindən Qanunun və Qanunla tələb olunan aktların tələblərinin pozulması faktlarını aşkar etmək və yol verilmiş qanun pozuntularını araşdırmaq üçün müvafiq prossedurlar hazırlanmışdır;

Aşkar edilmiş nöqsanların aradan qaldırılması və müvafiq tədbirlərin görülməsi məqsədilə tövsiyələr işləyib hazırlanmışdır;

Aparılmış şirkətdaxili yoxlamaların nəticələri, aşkar edilmiş yeni risklər, nöqsan və çatışmazlıqlar və onların aradan qaldırılması barədə vaxtında rəhbərliyə məlumat vermək üçün prossedurlar və nəzarət mexanizmləri mövcuddur;

Cəmiyyətin işçiləri tərəfindən Qanunla tələb olunan aktların tələblərinin öyrənilməsi üzrə işin təşkilinə nəzarət mexanizmləri mövcuddur ;

Daxili nəzarət proqramının müəyyən edilmiş risklərə, habelə fəaliyyətinin miqyasına və xüsusiyyətinə uyğunluğunu təhlil edilir ;

Daxili nəzarət proqramı çərçivəsində qəbul olunmuş daxili qayda, prosedurlar və nəzarət mexanizmlərinin səmərəliliyinə və effektivliyinə qiymət vermək üçün mexanizmlər mövcuddur;

Universitetin işçiləri tərəfindən ehtiyac yarandığı halda müştəri uyğunluğu tədbirləri tətbiq edilmişdir:

Daxili qayda və prosedurların, nəzarət mexanizmlərinin və onların inkişaf planlarının təsdiq və tətbiq edilmişdir;

Rəhbərlik səviyyəsində pozuntulara qarşı tələblərə riayət edilməsi üzrə müstəqil və effektiv sistem təşkil edilmişdir;

İşəgötürmə prosesində yüksək peşəkarlıq və vətəndaş qüsursuzluğu tələblərinin təmin edilməsi Məqsədilə yoxlama prosedurları təsdiq və tətbiq edilmişdir;

İşçilərin davamlı qaydada təlimlərə cəlb edilməsi təmin edilmişdir;

Mövcud sistemin səmərəliliyini standartlar əsasında qiymətləndirən müstəqil audit mexanizminin təşkil edilmişdir.

**Monitorinq olunmalı əməliyyatlara dair məlumat və sənədlərin Rəhbərliyə təqdim edilməsi qaydası**

Risklilik dərəcəsindən asılı olmayaraq, şübhəli və riskli hesab edilən hallar və ya belə hallara cəhdlər barədə məlumat və sənədlərin rəhbər və ya məsul şəxslərə təqdim edilməsi üçün nəzarət mexanizmləri hazırlanmışdır, mövcuddur, işçilərlə tanış etdirilmişdir.

İşçilərin daxili qayda, prosedur və nəzarət mexanizmlərinin , digər hüquqi aktlara müəyyən edilən tələblərə uyğun olaraq tərtib edilməsini və işçilərinin əmək funksiyalarının icrası zamanı qeyd edilən sənədlərə əməl etməsini şərtləndirən tədbirlər sistemi hazırlanmışdır və mövcuddur.

**Müstəqil audit mexanizmi**

Qanunla tələb olunan aktların tələblərinin, digər hüquqi aktların və daxili nəzarət proqramı çərçivəsində qəbul olunmuş daxili qayda, prosedurlar və nəzarət mexanizmlərinin tətbiq olunmasının səmərəliliyini qiymətləndirən müstəqil audit mexanizminə malikdir.

Müstəqil audit mexanizmi Qanunun tələblərinin tətbiqindəki potensial səhvlərin və nöqsanların vaxtında aşkar edilməsi və bununla bağlı risklərin minimuma endirilməsi üçün effektivliyə sahibdir.

Ayrı-ayrı əməkdaşlar və struktur bölmələri tərəfindən icra olunan əməliyyatların Qanunla tələb olunan aktların tələblərinə uyğun olaraq həyata keçirilməsi və müvafiq halda monitorinq olunması təmin edilir;

Qanunla tələb olunan aktların tələblərinin pozulması faktlarını aşkar etmək və yol verilmiş qanun pozuntularının araşdırılması mexanizmi mövcuddur.

Baş verəcək nöqsanların aradan qaldırılması və müvafiq tədbirlərin görülməsi məqsədilə tövsiyələr işləyib hazırlanmışdır;

Aparılmış yoxlamaların nəticələri və aşkar edilmiş faktların sənədləşdirilməsini təmin etmək, aşkar edilmiş yeni risklər, nöqsan və çatışmazlıqlar və onların aradan qaldırılması barədə vaxtında məlumat vermək üçün mexanizmlər mövcuddur;

Daxili nəzarət proqramının qanunvericiliyə, müəyyən edilmiş risklərə, habelə fəaliyyətinin miqyasına və xüsusiyyətinə uyğunluğu təhlil edilir;

**Məlumat və sənədlərin saxlanılması öhdəliyi**

Məlumat və sənədlər fəaliyyətin və müəyyən edilmiş şəxslərin nəzarət orqanlarının, habelə digər dövlət orqanlarının (qurumların) fəaliyyəti nəticəsində əməliyyatlar (əqdlər) və ya işgüzar münasibətlər barədə yaranan, saxlanılan və ya qeydə alınan sənədlər faktlar, rəylər, xəbərlər və ya digər xarakterli məlumatlar, kağız və ya elektron formada sənədlərin saxlanılması təmin edilir.

Təlimatların icrası zamanı əldə edilmiş sənəd və məlumatların saxlanması, informasiya təhlükəsizliyi sahəsində daxili tələblərinə və məlumatların saxlanması proseduruna uyğun şəkildə təşkil edilmişdir.

Universitetin daxili audit proqramının effektivliyi, daxili prosedurların qanunvericiliyə uyğunluğunun yoxlanılması, rəhbərliyin, işçilərin, struktur vahidlərin daxili nəzarət proqramı üzrə hüquq və vəzifələrinin əhatələndirilmişdir;

Cəmiyyətin fəaliyyətinin xarakteri, ölçüsü və mürəkkəbliyinin təhlilinə dair müddəalar yer almışdır;

Qanunun tələblərinin, daxili audit sahəsində normativ xarakterli aktların və daxili nəzarət proqramı çərçivəsində qəbul olunmuş qayda, prosedurlar və nəzarət mexanizmlərinin tətbiq olunmasının səmərəliliyini yoxlayan müstəqil audit mexanizminə malikdır.

Tətbiq edilmiş Müstəqil audit mexanizmi Qanunun tələblərinin tətbiqindəki potensial səhvlərin və nöqsanların vaxtında aşkar edilməsi və bununla bağlı risklərin minimuma endirilməsi məqsədini daşıyır.

Rəhbərlik Qanunun tələblərinin tətbiq olunmasının səmərəliliyini yoxlamaq məqsədlə auditinin müntəzəm keçirilməsi təşkil və təmin edir.

Universitetin ayrı-ayrı əməkdaşları və struktur bölmələri tərəfindən icra olunan əməliyyatların Qanunun tələblərinə uyğun olaraq həyata keçirilməsini və müvafiq halda monitorinq olunmasını təmin edilir, işçiləri tərəfindən Qanunun və daxili audit proqramının tələblərinin pozulması faktlarını aşkar etmək və yol verilmiş qanun pozuntularının araşdırılması üçün mexanizmlər hazırlanmış, aparılmış yoxlamaların nəticələri, aşkar edilmiş yeni risklər, nöqsan və çatışmazlıqlar və onların aradan qaldırılması barədə vaxtında rəhbərliyə məlumat üçün mexanzlər hazırlanmış, daxili audit proqramının adekvatlığını təhlil edilir.

Audit yoxlamalarının keçirilməsi qrafiki və müddətləri, yoxlanılacaq sahənin risk dərəcəsindən asılı olaraq müəyyən edilməsi mexanizmləri təşkil edilmişdir.

Təsərrüfat subyektlərinin idarə edilməsinin səmərəliliyinin artırılması məqsədi ilə daxili audit təşkili və həyata keçirilməsi təmin edilmiş, təsərrüfat subyektinin fəaliyyətinin inkişafına və səmərəliliyinin yüksəldilməsinə yönəldilmiş risklərin idarə olunması təmin olunmuşdur, nəzarət və idarəetmənin səmərəliliyinin qiymətləndirilməsi və inkişafına sistemli yanaşmaqla, təsərrüfat subyektinə öz məqsədlərinə nail olmaqda köməklik edən obyektiv, təminatverici və məsləhətverici fəaliyyət yerinə yetirilmişdir. Təsərrüfat subyektində müntəzəm və səmərəli fəaliyyətin təmin edilməsi, məqsədlərə nail olmaq üçün risklərin idarə edilməsi, istənilən dəyişikliyə qısa müddət ərzində münasibət bildirilməsi təmin edilmiş, bu məqsəd ilə yaradılan daxili nəzarət sisteminin səmərəliliyini və adekvatlığı təmin edilmiş, mühasibat uçotunun aparılmasının və maliyyə hesabatlarının düzgünlüyünü və etibarlılığı yoxlanılmış , təsərrüfat subyektinin xərclərinin səmərəliliyini qiymətləndirilmiş, təsərrüfat subyektinin, ona tabe olan müəssisə və təşkilatların (onun törəmə təsərrüfat cəmiyyətlərinin) struktur bölmələrinin fəaliyyətinin normativ hüquqi aktlara və təsdiq edilmiş fəaliyyət planına uyğunluğunu təmin edilmişdir.

Yoxlamanın nəticələri: nöqsan və çatışmazlıqlar aşkar edilməmişdir, İşçi heyəti üzrə şəxsi işlər əsasən düzgün formalaşdırılmışdır yol verilmiş qanun pozuntularına rast gəlinməmişdir, həmçinin səmərəsiz fəaliyyətə rast gəlinməmişdir.

**Tövsiyələr: Qanunvericilik** sahəsindəki Təlimatlardakı dəyişiklikləri nəzərə alaraq gələcəkdə də müntəzəm surətdə nəzərdən keçirilməsi və yenilənməsi tövsiyyə edilir.

**Daxili Audit komisyasının sədri** **S.R.İbrahimova**

**üzvləri** **E.Ə.Nəcəfov**

**H.Z.Əliyeva**

Tarix: **17 Yanvar 2020-ci il**

Möhür